**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**TURAL FƏRHAD OĞLU ƏLİYEV**

# "QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MİLLİ İQTİSADİYYATIN SOSİAL TƏHLÜKƏSİZİK AMİLLƏRİ"

**İxtisas: 5307.01** - "İqtisadi nəzəriyyə"

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Məmmədhəsən Xanlar oğlu Meybullayev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**İmran Mirzə oğlu Rzayev**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinın "İqtisadiyyat və İdarəetmə" kafedrası

Dissertasiya işinin müdafiəsi 28 oktyabr 2016-cı il tarixində saat 14.00-da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən D.01.181 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ. 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat 24 sentyabr 2016-cı ildə göndərilmişdir.

D.01.181 Dissertasiya Şurasının elmi katibi,
iqtisad üzrə fəlsəfə doktoru, dosent F.Q.Musayeva

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı:** Sosial təhlükəsizlik problemi fərdin, cəmiyyətin və dövlətin təhlükəsizliyi ilə birbaşa əlaqəli olduğu üçün həmişə siyasətçilərin, dövlət xadimlərinin və iqtisadçıların diqqət mərkəzində olmuşdur. O milli mənafeləri, gəlirlərin artırılması, əhalinin həyat səviyyəsinin və yaşayış keyfiyyətinin yüksəldilməsi, işsizliyin və yoxsulluğun minimum səviyyəyə endirilməsi, sosial müdafiəsinin təmin olunması və s. problemlərin həllini nəzərdə tutduğundan inkişafın bütün mərhələlərində sosial sahədə təhlükəsizliyin aktuallığı şübhəsizdir. Ona görə də, sosial təhlükəsizliyin təmin olunması elmi tədqiqat üçün mühüm istiqamətlərdən biridir və Azərbaycanın sosial-iqtisadi inkişaf xüsusiyyətlərini, adət-ənənələrini, milli mənafelərini nəzərə almaqla bu istiqamətdə kompleks elmi-tədqiqat aparılmasını zəruri edir.

Həmçinin beynəlxalq əmək bölgüsünün daha da genişlənib inkişaf etməsi, ölkələrarası iqtisadi əlaqələrin yeni-yeni formalarının meydana gəlməsi, milli iqtisadiyyatların dünya təsərrüfatına inteqrasiyası, dünya iqtisadiyyatının qloballaşması hər bir ölkədə həm xarici, həm də daxili sosial-iqtisadi təhlükələr yaradır. Bu da iqtisadi və sosial problemlərin yeni məzmunda meydana gəlməsinə səbəb olur, milli mənafelərin təmin olunmasının yeni forma və metodlarının yaradılmasını tələb edir. Bütün bunlara görə milli iqtisadiyyatın sosial təhlükəsizliyinin elmi-metodoloji və praktiki məsələlərinin tədqiqinin aktuallığı, Azərbaycanda sosial sahədə strategiyanın reallaşması mexanizminin formalaşması, bu zaman qarşıya çıxan problemlərin əlverişli yollarının aşkar edilməsi, onların müvəffəqiyyətlə həlli üçün dünya təcrübəsinin öyrənilməsinin zəruriliyi tərəfimizdən tədqiqat predmeti kimi seçilmişdir.

**Problemin öyrənilmə səviyyəsi:** Azərbaycanda nəzəriyyə və praktika sahəsində milli iqtisadiyyatın iqtisadi və sosial təhlükəsizliyinin öyrənilməsi göstərdi ki, dissertasiya işinin vəzifələrinin tədqiqi üçün kifayət qədər elmi zəmin vardır. Milli iqtisadi maraqların qorunması məsələləri dünya iqtisad elminin görkəmli nümayəndələrindən V.Erhard, V.Oyken, C.Kornai, V.Leontyev, V.Şumpeter, V.Zombart, M.Porter və başqalarının əsərlərində ayrı-ayrı səviyyələrdə işlənmişdir. 1929-1932-ci illərin böhranından çıxmaq üçün Qərb alimlərindən C.Keyns, Q.Qezan, D.Xager, D.Yoltsman, V.Xodski və başqaları iqtisadi təhlükəsizliyin sosial aspekti kimi məşğulluğun təmin olunması və sosial təminatı nəzərdə tutmuşlar.

Ölkəmizdə bu sahədə tanınmış iqtisadçı alimlərdən Z.Ə.Səmədzadə, M.X.Meybullayev, Ş.M.Muradov, Ə.Q.Əlirzayev, F.F.Mustafayev, Q.N.Manafov, F.C.Əliyev, M.A.Əhmədov, İ.A.Kərimli, İ.H.Alıyev, N.M.İmanov, C.B.Quliyev, P.S.Həsənov, R.S.Abdullayeva, Ş.S.Qafarov, Ü.Q.Əliyev, N.M.Məmmədov, M.İ.Bərxudarov və başqaları iqtisadi islahatlar dövründə iqtisadi təhlükəsizlik və milli mənafelərin qorunması sahəsində müəyyən səviyyədə tədqiqatlar aparmışlar. Onlar əsərlərində neqativ ictimai hadisələrin sosial səbəblərinə, sosial müdafiə tədbirlərinə, o cümlədən sosial nəzarət, ekoloji, ərzaq təhlükəsizliyi, milli və iqtisadi təhlükəsizlik və s. məsələlərin həllinə diqqət yetirmişlər.

Xarici alimlərdən Y.İ.Abalkin, E.A.Xodakovski, A.İ.Arxipova, Q.A.Alibekova, A.Belousov, V.Sençaqov, A.Strakov, V.K.Pankov, V.Z.Tambovtsev, R.Dronov, S.Qlazyev, A.İ.İllarionov, A.B.Oçarova və başqalarının əsərlərində iqtisadi təhlükəsizlik məsələləri öyrənildiyi zaman sosial problemlərə də yer verilmişdir.

**Tədqiqat mövzusunun məqsədi və vəzifələri.** Tədqiqat işinin məqsədi qloballaşma şəraitində milli iqtisadiyyatın sosial təhlükəsizliyinin nəzəri-metodoloji aspektlərini, Azərbaycanda onun formalaşması və inкişafı xüsusiyyətlərini, eləcə də mövcud problemləri dərindən öyrənib ümumiləşdirmək əsasında milli sosial təhlüкəsizlik sisteminin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər işləyib hazırlamaqdan ibarətdir.

Bu məqsədlə dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdirr:

- sosial təhlükəsizliyin mahiyyət və məzmununu tədqiq etməklə onun milli iqtisadiyyatın təhlükəsizlik sistemində rolunun əsaslandırılması;
- sosial təhlükəsizliyin meyar və göstəricilərinin, onların qarşılıqlı əlaqəsinin, inkişaf meyllərinin öyrənilməsi və ümumiləşdirilməsi;
- qloballaşma şəraitində milli sosial təhlükəsizliyin təmin olunmasının zəruriliyi və xüsusiyyətlərinin tədqiq edilməsi;
- həyat səviyyəsinin və yaşayış keyfiyyətinin yüksəldilməsi fonunda Azərbaycanın sosial təhlükəsizliyinin müasir vəziyyətinin təhlil edilməsi;
- sosial təhlükəsizlik strategiyasında əhalinin məşğulluğu üzrə siyasətin aparıcı həlqələrinin aşkar olunması;

- sosial təhlükəsizliyin təmin olunmasında yoxsulluq probleminin araşdırılaraq qiymətləndirilməsi və sosial qütbləşmənin aradan qaldırılması ilə bağlı müvafiq təklif və tövsiyyələrin verilməsi;
- qloballaşma şəraitində sosial təhlükəsizliyin təmin olunmasında insan kapitalı amilinin rolunun əsaslandırılması;
- ölkənin sosial təhlükəsizliyinin təmin olunmasının amili kimi sosial müdafiə sisteminin səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətlərinin göstərilməsi;
- Azərbaycanda sosial təhlükəsizliyin təminində indeksləşdirmənin təkmilləşdirilməsinin əsaslandırılması.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini bütövlükdə milli iqtisadiyyatın sosial təhlükəsizlik sistemi, predmetini isə müasir dövrdə Azərbaycanda sosial təhlükəsizliyinin təmin edilməsi prosesində yaranan iqtisadi münasibətlər təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsaslarına** qloballaşma şəraitində ölkədə sosial təhlükəsizlik və onun təmin olunmasının zəruriliyi nəzəriyyəsinə, onun müxtəlif tərkib hissələrinin inkişaf mexanizminə, ölkə və xarici iqtisadçıların bu sahələrin inkişafında yeni meyllərə, həmçinin idarəetmənin müxtəlif mərhələlərində səmərəli sosial strategiyanın yaranması məsələlərinə həsr olunan əsərlər, normativ, hüququ aktlar, statistik məlumatlar, həmçinin müasir mərhələdə sosial siyasətin təhlili əsasında müəllifin əldə etdiyi nəticələr aiddir.

Dissertasiya işində davamlılıq, iqtisadi və tarixi fərqlilik prinsipləri nəzərə alınmaqla dialektik, induksiya, deduksiya, sistemli təhlil, müqayisə, statistik metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu, Baş Məşğulluq İdarəsi, İqtisadiyyat və Sənaye, Maliyyə, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirlikləri, beynəlxalq maliyyə institutları (Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı), Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının materialları, problemlə bağlı rəsmi mətbuat orqanları və internet resurslarının müvafiq məlumatları təşkil edir.

**Tədqiqatın elmi yenilikləri aşağıdakılardır:**

- sosial təhlükəsizliyin mahiyyəti və məzmunu nəzəri-metodoloji baxımdan araşdırılaraq onun təmin edilməsinin meyar və göstəriciləri təsnifatlaşdırılmışdır;

- qloballaşma şəraitində həyat səviyyəsi və yaşayış keyfiyyətinin dinamikasında mövcud meyllər aşkarlanmış və milli iqtisadi inkişaf kontekstində səciyyələndirilmişdir;
- Azərbaycanda sosial təhlükəsizliyin mövcud vəziyyətinin daha da yaxşılaşdırılmasının yolları haqqında müəllif mövqeyi irəli sürülmüşdür;
- ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf konsepsiyasının əsas istiqamətləri sırasında Azərbaycanın sığorta-pensiya sisteminin təkmilləşdirilməsi yolları göstərilmişdir;
- sosial təhlükəsizliyin bazar tələblərinə uyğun təmin olunmasında sosial müdafiə sisteminin təkmilləşdirilməsi zəruriliyi və başlıca istiqamətləri müəyyən edilmiş, müvafiq təklif və tövsiyyələr bildirilmişdir.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın gedişində sosial təhlükəsizliyin təmin olunmasında sosial strategiyanın işlənməsi və formalaşması üzrə əsas nəzəri müddəalar və təkliflər dövlət və ölkə hökuməti səviyyəsində təhlükəsizliyin təmin olunması mexanizminin formalaşması üçün istifadə oluna bilər.

**Tədqiqat işinin əsas nəticələri** Azərbaycan Memarlıq və İnşaat Universitetinin "İqtisadi nəzəriyyə və marketinq" kafedrasında müzakirə olunmuş və "Əhali gəlirlərinin formalaşması və bölgüsü", "Həyat səviyyəsi", "Qlobal iqtisadi problemlər" mövzularında istifadə olunması üçün məsləhət bilinmişdir.

Dissertasiya işinin mövzusu üzrə 325 çap vərəqi həcmində 1 monoqrafiya (şərikli) və 7 məqalə (2 məqalə şərikli), o cümlədən xaricdə 2 məqalə nəşr edilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflər, eləcə də istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işi kompüter yazısı ilə 158 səhifə həcmindədir. İşdə 12 cədvəl, 2 qrafik və 4 şəkildən istifadə edilmişdir.

## Dissertasiya işinin mündəricatı

**Giriş**

**I Fəsil. Milli iqtisadiyyatın sosial təhlükəsizliyinin nəzəri-metodoloji əsasları**

1.1. Milli iqtisadiyyatın təhlükəsizlik sistemində sosial təhlükəsizliyin yeri və rolu

1.2. Sosial təhlükəsizliyin meyarları və göstəricilər sistemi
1.3.Qloballaşma şəraitində sosial təhlükəsizliyin təmin olunmasının zəruriliyi və xüsusiyyətləri

**II Fəsil. Müasir şəraitdə Azərbaycanda sosial təhlükəsizlik amillərinin vəziyyəti**
2.1. Həyat səviyyəsi və yaşayış keyfiyyətinin dinamikasında əsas meyllər
2.2. Əhalinin səmərəli məşğulluğu və sosial stabilliyin təmin olunması
2.3. Yoxsulluq problemi və sosial təbəqələşmənin azaldılması

**III Fəsil. Qloballaşma şəraitində milli iqtisadiyyatın sosial təhlükəsizliyinin təkmilləşdirilməsi istiqamətləri**
3.1. Qloballaşma şəraitində sosial təhlükəsizliyin təmin olunmasında insan kapitalının rolu
3.2. Ölkədə sosial təhlükəsizliyin təmin olunması istiqamətində əhalinin sosial müdafiə sisteminin yaxşılaşdırılması
3.3. Azərbaycanda əhalinin sosial təminatında indeksləşdirmənin təkmilləşdirilməsi

**Nəticə və təkliflər**

**İstfadə edilmiş ədəbiyyat**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. Sosial təhlükəsizliyin mahiyyəti və məzmunu nəzəri-metodoloji baxımdan araşdırılaraq onun təmin edilməsinin meyar və göstəriciləri təsnifatlaşdırılmışdır**

Sosial təhlükəsizlik ayrıca bir anlayış kimi yox, milli təhlükəsizliyin tərkib hissəsi kimi digər təhlükəsizlik sistemləri – iqtisadi, ekoloji, maliyyə, siyasi, müdafiə, demoqrafik və s. ilə əlaqəli olub, onların sosial aspektlərini əhatə edir. Yəni bu təhlükəsizlik növlərinin təmin olunması zamanı insanların, sosial qrupların, cəmiyyət üzvlərinin mənafeyi nəzərə alınır.

İqtisadi ədəbiyyatda sosial təhlükəsizlik şəxsiyyətin, ailənin və cəmiyyətin həyati vacib maraqlarının daxili və xarici təhlükələrdən müdafiə olunması, qorunmasının təhlükəsizlik vəziyyəti və əhalinin həyat səviyyəsinin normal şərtlərini müəyyən edən keyfiyyət xarakteridir.

Milli iqtisadiyyatın sosial təhlükəsizliyi mikro səviyyədə ayrıca bir şəxsin təhlükəsizliyi, onun şəxsi mənafeləri və tələbatlarının ödənilməsidir. Məhdud mənada bu insanların bioloji bir varlıq kimi mövcud olması, mühüm həyatı maraqlarına təhlükə törədən amillərin və şərtlərin dəf edilməsidir. Makrosəviyyədə sosial təhlükəsizlik ölkə ərazisində və onun regionlarında yaşayan hər bir insanın, sosial qrupun həyat fəaliyyəti, təkrar istehsalı ilə əlaqədardır. Bu isə geniş mənada ölkə əhalisinin maddi, mənəvi və sosial tələbatlarının ödənilməsi, onların təminatının qorunması, əmək və məişət şəraiti üçün təhlükə yaradan amillərin aradan qaldırılması deməkdir.

Qloballaşma şəraitində sosial təhlükəsizlik bu zaman meydana çıxan təhdid, təhlükə və hədələrdən milli maraq və mənafeləri qoruyan milli təhlükəsizliyin keyfiyyət elementidir. Bu həm də sosial sferanın müdafiəsinin təmin olunması üçün təhlükəli amillərin müəyyən edilməsi və onun aradan qaldırılması mexanizmini təmin edən hüquqi normalar kompleksidir.

Sosial təhlükəsizliyin qarantı kimi sosial sabitlik çıxış edirsə, sosial inkişaf – həyat səviyyəsinin və keyfiyyətinin daim yaxşılaşdırılması baxımından sosial təhlükəsizliyin tam təminatıdır. Ona görə də vətəndaşların əmək, sosial təminat, təhsil, səhiyyə və mədəniyyət sahələrində konstitusiya hüquqlarının qorunması, əhalinin həyat şəraiti və maddi vəziyyətinin yaxşılaşdırılması, əhalinin məşğulluğunun, işçi qüvvəsinin təkrar istehsalının təmin edilməsi, işsizliyin azaldılması üçün bu sahənin inkişafına yönəldilən maliyyə vəsaitlərinin daim artırılmasını vacib hesab etmək olar. 2005-2015-ci illər ərzində dövlət büdcəsindən əhalinin sosial müdafiəsi və sosial təminatına çəkilən xərclər 304,9 mln manatdan 2022,0 mln manata qədər artmışdır. Lakin sosaial təhlükəsizlik çox geniş sahəni əhatə etdiyindən onun təmin olunması bu sahəyə daha çox investisiya yönəldilməsini tələb edir.

Sosial təhlükəsizliyin meyarları sosial sferanın vəziyyətini təhlil etməyə və qiymətləndirməyə imkan yaradır. Bu baxımdan:

- Sosial təhlükənin meydana çıxmasının qarşısının alınması;
- Sosial strukturun tənəzzülünə yol verilməməsi;
- Dayanıqlı sosial strukturun təmin edilməsi və s. meyarlar ən mühüm proseslər üzrə onun qiymətləndirilməsidir.

Hesab edirik ki, əhalinin həyat səviyyəsi və yaşayış keyfiyyətinin göstəriciləri haqqında normaları əks etdirən sosial standartlar sisteminin həyata keçirilməsi və bu sahədə beynəlxalq təcrübənin daim öyrənilməsi problemlərin həllində əsasdır. Əmək şəraitinin keyfiyyəti, insanın inkişaf potensialı, ailənin mühafizəsi, təhsil və səhiyyə xidmətləri, ətraf mühit üzrə

və s. standartlar həyat keyfiyətinin daha yüksək səviyyəyə çatdırılması üçün meyarlardır.

Sosial sahədə olan təhlükə və təhdidlərin mövcud səviyyəsini qiymətləndirmək üçün iqtisadçı alimlərin yanaşmalarından istifadə edərək meyar tipli (indikativ) göstəricisiləri aşağıdakı formada təqdim edirik:

**Sxem 1**

**Azərbaycanda sosial təhlükəsizliyin təmin olunması amilləri**




Sosial təhlükəsizliyin bu göstəriciləri bir-birilə əlaqəli olub nisbi xarakter daşıyır. İqtisadiyyatın inkişaf səviyyəsindən, ölkənin mövcud sosial-iqtisadi və siyasi vəziyyətindən asılı olaraq bu və ya digər göstərici daha vacib və mühüm olur. Təhlükəli göstəricilərin vaxtında müəyyən edilməsi və aradan qaldırılması sahəsində görülən tədbirlər həmin göstəricilərin təhlükəsizliyini təmin etdiyindən burada əhəmiyyətli məsələ bu göstəricilərin son hədd qiymətlərinin müəyyənləşdirilməsidir. Ən təhlükəli vəziyyət isə bu göstəricilərin hamısının son həddə yaxınlaşmasıdır. Xarici təcrübəyə görə 10% yüksək gəlirli əhali ilə 10% ən aşağı gəlirlilər arasında nisbət 10 dəfədirsə, bu son hədd sayılır.

Milli iqtisadiyyatın sosial təhlükəsizlik problemi mürəkkəb və genişmiqyaslı olduğundan onun təhlükəsizliyinin idarə edilməsi stukturu aşağıdakı şəkildə verilmişdir.

**Sxem 2**

**Azərbaycanın milli iqtisadiyyatının sosial təhlükəsizlik sistemi**




Hazırda ölkələr arasında beynəlxalq iqtisadi əlaqələr – kooperasiya, xarici investisiya, kapital qoyuluşu, müştərək müəssisələrin yaradılması, idxal-ixrac əməliyyatları, elmi-texniki əməkdaşlıq, ticarət, maliyyə və valyuta əməkdaşlığı, əhalinin beynəlxalq hərəkəti, sosial mədəni xidmətlərin göstərilməsi, turizm, azad iqtisadi zonaların yaradılması və s. qlobal iqtisadiyyata qoşulmanın konkret təzahürüdür.

Qloballaşma təkcə iqtisadiyyat sferası ilə məhdudlaşmayıb, həm də mənəviyyata, əxlaqa, əhalinin həyat tərzinə və sosial iqtisadi həyatın bütün tərəflərinə təsir etdiyindən ölkəmizdə qlobal və regional təhlükəsizliyin təmin olunması mexanizmi kimi:

- daxili və xarici təhlükələrin üzə çıxarılması, onların proqnozlaşdırılması məqsədilə sosial sahənin monitorinqinin aparılması;
- sosial təhlükələrin ən yüksək hədd ölçülərinin işlənib hazırlanaraq qarşısının alınması və bu sahədə dövlətin fəaliyyətinin gücləndirilməsi;
- sosial təhlükəsizlik institutlarının və mexanizmlərinin təkmilləşdirilməsi problemlərinin nəzərə alınması və s. zəruridir.

**2. Qloballaşma şəraitində həyat səviyyəsi və yaşayış keyfiyyətinin dinamikasında mövcud meyllər aşkarlanmış və milli iqtisadi inkişaf kontekstində səciyyələndirilmişdi.**

Cəmiyyət üzvlərinin sosial rifahının yaxşılaşdırılması və yaşayış keyfiyətinin yüksəldilməsi insanların təkrar istehsalı ilə bağlı olan ən əsas və mühüm göstərici olduğundan həyat səviyyəsi qlobal (müxtəlif

ölkələrin), makro (bütövlükdə ölkə vətəndaşlarının) və mikro (müxtəlif əhali qruplarının) səviyyədə araşdırılmışdır.

BMT-nin İnkişaf Proqramının "İnsan İnkişafı Haqqında" məruzəsində (2010-cu il) insanın inkişaf göstəriciləri yeni təsnifatda adambaşına ÜMG, təhsilin orta müddəti və gözlənilən müddəti (təhsilin səviyyəsi) və doğulandan gözlənilən ömür uzunluğu (səhiyyənin səviyyəsi) göstərici ilə ifadə olunur. Statistik məlumatlara görə Azərbaycanda ÜMG dünya ölkələri üzrə orta göstəricidən az olsa da, MDB ölkələrinin bəzilərindən qabaqdadır.

İnsan inkişafının digər göstəriciləri – təhsil və səhiyyəyə ayrılan büdcə vəsaitlərinin ilbəil artması (2015-ci ildə təhsilə 771,2, səhiyyə isə 777 mln manat vəsait ayrılmış), bu sahələrin inkişafında kəmiyyətcə qənaətbəxş olsa da, keyfiyyət baxımından məqbul hesab etmək olmaz. İqtisadiyyatın innovsiyalı inkişafı üçün elmin maliyyələşdirilməsinə dövlət büdcəsi resurslarının artırılması ilə yanaşı digər mənbələrin cəlb olunması, təhsil işçilərinin stimullaşdırılması bu yöndə müsbət tədbirlərdir.

İnsan amilinin özünün və cəmiyyətin mövcudluğu ilə bağlı olan səhiyyə sistemində ilk tibbi yardım sisteminin möhkəmləndirilməsi, pulsuz tibbi yardıma dövlət təminatının artırılması, güzəştli tibbi xidmət, icbari tibbi sığorta, dərman sığortası kimi xidmətlərin genişləndirilməsi də zəruridir. Bunlar isə inkişaf indeksinin daha bir göstəricisi olan ömür müddətini uzadır. Ölkədə orta ömür müddəti 73,8 il olmaqla inkişaf etmiş ölkələrdən az olsa da (Qərbi Avropa ölkələrində 78-82 il, Yaponiyada 82 il) o qədər də aşağı deyildir.

Ölkə daxilində real gəlirlərin həcminin az olması digər təhlükəsizlik göstəricilərinin – sərəncamda qalan gəlirin azalmasına səbəb olur ki, bu da istehlak məhsullarının istehlakını məhdudlaşdırır, qidalanmanı pisləşdirir, sağlamlığına ziyan vuraraq insanların fiziki və mənəvi yoxsullaşmasına gətirib çıxarır və yaşayış səviyyəsinə təhlükə yaradır. Statistik rəqəmlərə görə son 12 il ərzində ÜDM istehsalı 12 dəfə artaraq 2014-cü ildə 79,4 mlrd manat olmuş, onun orta illik artımı dünya ölkələrindən 3,5 dəfə çox olmuşdur. Lakin ÜDM-nin dəyişmə indeksində ciddi dəyişikliklər olsa da, inkişaf etmiş ölkələrlə müqayisədə adambaşına ÜDM (2015-ci ildə bu 6,9 min manat) hələ də azdır.

İnsanların sosial vəziyyətini və həyat keyfiyyətini vəziyyətini təhlil etmək üçün onun maddi əsasını təşkil edən əhali gəlirlərinin səviyyəsi, dinamikası, ölçülməsi, bölgüsü və istifadəsi məsələləri tədqiq olunarkən məlum olmuşdur ki, 2005-2015-ci illər ərzində ölkə əhalisinin məcmu gəlirləri 8 mln manatdan 42 mlrd manata qədər artmışdır.




**Mənbə: Azərbaycanın Statistik Göstəriciləri. 2014, Bakı, 2014, s.38-39**

Göründüyü kimi 2000-ci illə müqayisədə 2015-ci ildə adambaşına düşən gəlirlər artaraq 5703,7 manata çatmışdır. Sərəncamda qalan gəlir isə 9,3 dəfə artaraq 3755 manat təşkil etmişdir. Həmçinin gəlirlərin mütləq artması onların qeyri-bərabərliyini azaltmamışdır. Gəlirlərin paylanmasındakı qeyri-bərabərliyi səciyyələndirən Cini əmsalı 2002-ci ildə 38,2% olmuş, 2013-cü ildə gəlirlərin paylanmasının bərabərsizliyı 5,9% bənd azalaraq 33,0% təşkil etmişdir. Buradan da, harada işləməsindən asılı olmayaraq vətəndaşların əmək gəlirləri ailə üzvlərinin yaşayış minimumundan yüksək olması bir zərurət olaraq qalır. Həmçinin əhali gəlirləri əmək haqqından başqa sosial siyasətdən asılı olduğu üçün sosial ədalətli gəlir sisteminin olması fərdin əmək qabiliyyəti müqabilində gəlir əldə edilməsimə şərait yaratmaqla onların bərabərləşdirilməsinə deyil, nisbətin gözlənilməsinə səbəb olur.

Sosial təhlükəsizlik baxımından həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsinin maddi əsasını təşkil edən gəlirlərin artımı nə qədər zəruridirsə, onun istehlakı, xərclənməsi də bir o qədər əhəmiyyətlidir. Bu ölkənin sosial-iqtisadi vəziyyəti, əhalinin adət-ənənələri, tələbatların müxtəlifliyindən və s. amilərdən asılı olduğundan bütün dövrlərdə onlardan istifadənin səviyyəsi və istiqamətləri eyni olmur.

İnkişaf etmiş ölkələrdə həyat səviyyəsi gəlirlərin xərclənməsi və adambaşına ərzaq məhsullarına çəkilən xərclər üzrə qiymətləndirilir. Bu ölkələrdə ailələrin adambaşına ərzağa xərcləri azgəlirli ailələrdə xüsusilə böyük faiz təşkil edir. ABŞ-da ailə gəlirlərinin 24-25 faizi, Qərbi Avropa ölkələrində 20 faizi, Yaponiyada isə 25-30 faizi ərzağa xərclənir. MDB ölkələrinin, məsələn Belarus Respublikasında, Qazaxıstanda, Rusiyada aztəminatlı ailələrdə xərclərinin təxminən 60-70%-i, təminatlı ailələrin 42%-i, yüksək təminatlı ailələrdə isə 25-30% ərzağa xərclənir. Statistik məlumatlara görə, 2013-cü ildə I kvintildən olan ailələrdə ərzağa xərclər

ölkə üzrə 52,1%, V kvintildə isə 29,8% təşkil etmişdir. Desillər üzrə I desildə ərzaq məhsullarına xərclər 53,9% təşkil edirdisə, X desildən olan ailələrdə isə 26,8% olmuşdur.

Adambaşına ərzağa xərclərin Azərbaycanda nisbətən yüksək olması (41,5%) ailə gəlirlərinin kifayət qədər olmaması ilə bağlıdır. 2015-ci ildə ehtiyac meyarının 105 manat, yaşayış minimumun 131 manat olmasına baxmayaraq, adambaşına aylıq gəlirlər və onların ərzağa çəkilən hissəsi hələlik əhalinin hamısının yaşayış minimumunu təmin etməyə imkan vermir. Ona görə də, bu günki giymətlər nəzərə alınmaqla ailə gəlirlərinin artırılmasına ehtiyac vardır.

Analoji olaraq ailələrin istehlak xərclərndə I kvintildə xidmətə xərclər 33,4%, V kvintildə 49,8%, I desil üzrə xidmətə xərclər 32,3%, X desil üzrə 52,8% təşkil etmişdir. İnkişaf etmiş ölkələrdə ailə gəlirlərinin təqribən yarısı, bəzən də daha çox hissəsi xidmətlərə sərf olunur. 2015-ci ildə Azərbaycanda iqtisadiyyatın xidmət sahələrində yaranmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 39,4% olmuşdur. Hesab edirik ki, həyat səviyyəsinin qiymətləndirilməsində insanların mənzil şəraiti, sosial-mədəni xidmət sahələrinin inkişafı, asudə vaxt və ondan səmərəli istifadə problemi mühüm əhəmiyyət kəsb etdiyindən bu sahələrin inkişafı da sosial təhlükəsizlik baxımından çox zəruridir.

**3. Ölkədə sosial sabitliyin qorunması üçün məşğullun və yoxsulluğun azaldılması kompleks şəkildə əlaqələndirilərək tövsiyyə xarakterli təkliflər verilmişdir.**

Əhali gəlirlərinin artımındakı dinamiklik dövlətin məşğulluq sahəsində atdığı addımlardan bilavasitə asılıdır. Çünki, sosial sabiliyin təmin olunması əhalinin səmərəli məşğulluğu, iş qüvvəsinin keyfiyyətinin yüksəldilməsi və onun rəqabət qabiliyyətinin artırılması ilə əlaqəlidir. İşsizliyin iqtisadi təhlükəsi məhsul və xidmətlər çatışmamazlığıdırsa, sosial təhlükəsi insanların fiziki və psixoloji sağlamlığının itirilməsidir. Ona görə də, iqtisadi siyasət kursu kimi ölkədə regionların sosial iqtisadi inkişaf Proqramları, habelə digər proqramların yerinə yetirilməsi nəticəsində son 12 ildə 40 mindən artıq yeni müəssisə tikilmiş, 1,4 milyondan artıq iş yeri açılmış, işsizlik 5,0%-ə düşmüşdür. Lakin hesab edirik ki, işsizliyin azaldıması və bu sahədə mövcud olan problemlərin həll edilməsi üçün dayanıqlı gəlir mənbələrinin təmin olunması, iş yerlərinin sayının artırılması, onların əhalini ixtisas, yaş, cins tərkibinə uyğunlaşdırılmasıdır. Qloballaşma şəraitində miqrasiyasının mənfi rolunu azaltmaq, sosial təhlükəsizliyini təmin etmək üçün ölkədə sosial şəraiti yaxşılaşdırmaq,

əmək haqqlarını dünya standartlarına uyğunlaşdırması tədbirləri daim artırılmalıdır.

Ölkədə təbii işsizlik səviyyəsinin saxlanması və məşğulluğun təmin edilməsi üçün iqtisadiyyatın inkişafının daxili və xarici şəraitlərinin dəyişməsinə tez uyğunlaşa bilən "çevik əmək bazarı"nın yaradılması (natamam iş günü, müvəqqəti məşğulluq, ikinci məşulluq, iş yerlərinin dəyişməsi) fəaliyyəti sahəsində müəyyən işlər görülsə də, bu sahədə bununla kifayətlənmək olmaz. Əmək bazarının tənzimlənməsi üçün işçilərlə işəgötürənlər arasında xüsusi razılaşmaları ifadə edən sosial tərəfdaşlıq münasibətlərinin (məsləhət və informasiya köməkliyi, işsizlərin öyrədilməsi, iş qurmaq istəyən işsizlərə kömək) yaradılması sosial gərginliklərin azaldılmasına xidmət edər.

Gender probleminə uyğun olaraq, qadınların bir ana və bir işçi kimi funksiyasının səmərəli əlaqələndirilməsi, istehsalda əmək şəraitinin yaxşılaşdırılması, çevik əmək rejiminin tətbiq olunması əhalinin təkrar istehsalı prosesinə müsbət təsir göstərməklə onların şəxsiyyətinin hərtərəfli inkişafını, bununla da sosial təhlükəsizliyi təmin edər.

Əmək bazarının tələb və təklifi arasındakı tarazlığın təmin edilməsi üçün təhsil proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması, ən yüksək bilik və qabiliyyətli gənclərin məşğulluğuna dövlət qayğısının artırılması, gənclərin peşə və ixtisas təhsilinin keyfiyyətinin artırılması, elmi-texniki tərəqqinin tələblərinə uyğun ixtisaslı işçilərin hazırlanması işlərinin gücləndirilməsi də vacib problemlərdir.

Sosial sahədə ən böyük təhlükə yoxsulluq və cəmiyyət üzvlərinin təbəqələşməsi olduğundan onun səviyyəsinin qiymətləndirilməsi yoxsulluq həddindən asılıdır və bu da istehlak səbəti və yaşayış minimumu ilə müəyyən olunur. Dünya ölkələrində o ərzaq məhsullarının kəmiyyətini ifadə edən ərzaq enerjisi və qida məhsullarının xüsusi çəkisi ilə müəyyənləşdirilir.

Ölkəmizdə yoxsulluq həddi (2013-cü ildə 125,2 manat) bir qayda olaraq, I və II kvintili və I və III desilində olan əhalidir. Yoxsulluq həmçinin əldə olunan gəlirlərin alıcılıq qabiliyyəti ilə bağlı olduğundan onun adambaşına aylıq pul gəlirlərinin və istehlak qiymətləri indeksinin dəyişməsi meylini izləyərkən məlum oldu ki, ayrı-ayrı dövrlərdə adambaşına aylıq pul gəlirinin artımı istehlak qiymətlərinin artımını qabaqlamışdır. Lakin, əhalinin bir hissəsinin aylıq pul gəlirləri yaşayış üçün zəruri olan yaşayış minimumundan hələ də geri qalır.

| İllər | Əhalinin adambaşına aylıq pul gəlirləri | İstehlak qiymətləri indeksi | Əhalinin adambaşına aylıq pul gəlirləri və istehlak qiymətləri indeksi arasında nisbət |
|---|---|---|---|
| 2003 | 1,04 | 1,02 | 1,02 |
| 2005 | 1.21 | 1,09 | 1,11 |
| 2010 | 1,11 | 1,06 | 1,05 |
| 2013 | 1,07 | 1,02 | 1,05 |
| 2014 | 1,05 | 1,01 | 1,04 |

**Mənbə: Cədvəl müəllif tərəfindən Dövlət Statistika Komitəsinin məlumatlarına uyğun tərtib edilmişdir.**

Bütün dövrlərdə qiymət əhalinin real gəlirlərinə mənfi təsir göstərməklə, onların maddi tələbatlarının tam ödənilməməsinə, bu isə son nəticədə aclıq, yoxsulluq, xəstəlik, fiziki sağlamlığın zəifləməsi, dilənçilik və s. təhlükəli vəziyyətlərin yaranmasına, cəmiyyətin tənəzzülünə gətirib çıxarır. Qiymət artımı ilk növbədə büdcə təşkilatlarında çalışanların həyat səviyyəsinə güclü təsir etdiyi və sosial gərginliyi artırdığı üçün ölkənin davamlı və dinamik inkişafı ilə büdcə vəsaitlərinin artması bu zümrədən olan vətəndaşların əməyinin lazımınca qiymətləndirilməsinə imkan verir.

Yoxsulluğun azaldılması və iqtisadi inkişafı (YAİİDP), regionların inkişafı və bir sıra digər Dövlət proqramlarının həyata keçirilməsi nəticəsində yoxsulluq səviyyəsini 1995-ci ildəki 49%-dən 2014-cü ildə 5%-ə qədər azaltmaq mümkün olmuşdur. Azərbaycanda ÜDM-nin həcminin ilbəil artması (2015-ci ildə 59 mlrd. manat olmaqla əvvəlki ilə nisbətən 2,8% çoxdur), göstərilən problemlərin həllinə imkan verir. “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyasında da müasir yanaşmalara uyğun olaraq bu məsələnin həlli problemlərindən bəhs edilir.

Yoxsulluq investisiya fəaliyyətini azaldan, ÜDM-in artım tempini ləngidəın amil kimi də çıxış etdiyindən yoxsulluqla mübarizə müvəqqəti tədbir olmaqla yardımların yüksəldilməsi yox, məcmuu tələbin artırılması ilə məcmuu təklifin artımına təkan verməklə əhali gəlirləri ilə istehsalın artım imkanları arasında əlaqənin təmin olunmasıdır. Bizə belə gəlir ki, yoxsulluğun miqyasının məhdudlaşdırılması üçün tədbirlər sırasında:

- əhalinin əmək gəlirlərinin, o cümlədən real əmək haqqlarının artırılması;
- iqtisadiyyatın strukturunun daim təkmilləşdirilməsi;
- yoxsulluq həddindən aşağı olan ailələrin sayının azaldılmasında sosial müdafiə sisteminin real və potensial imkanlarının aşkar edilməsi və təkmilləşdirilməsi;

- əhalinin sosial təbəqələşməsinə demoqrafik amillərin təsirinin nəzərə alınması;
- insan potensialının inkişaf etdirilməsi, səhiyyənin gücləndiriməsi, savadsızlıqla mübarizə, peşə hazırlığı və digər xidmət sektorlarının inkişafına sərmayə qoyulmasının genişləndirilməsi davam etdirilməlidir.

**4. Sosial təhlükəsizliyin bazar tələblərinə uyğun təmin olunmasında sosial müdafiə sisteminin təkmilləşdirilməsinin zəruriliyi və başlıca istiqamətləri göstərilmişdir.**

İnsan amilinin yaşayış səviyyəsinin və keyfiyyətinin yüksəldilməsinin təhlükəsizliyi yoxsul və aztəminatlı əhalinin sosial müdafiəsindən də asılıdır. İqtisadi sistemdən, inkişaf mərhələsindən asılı olmayaraq bütün ölkələrdə əhalinin sosial müdafiəsi əmək münasibətlərinə cəlb olunanların, həm də əmək münasibətləri subyekti olmayanların normal həyat fəaliyyətinin mühüm təminatçısı funksiyasını həyata keçirir. İqtisadi fəal əhalinin sosial müdafiəsinə yönəldilən işsizliyə görə müavinətlər əksər ölkələrdə işsizliyə görə sığorta sisteminin əsasında həyata keçirilir və əmək haqqının 50% həcmində ödənilir. Azərbaycanda isə sonuncu iş yerindəki orta aylıq əmək haqqının 70%-nə dək, minimum əmək haqqından az olmayaraq 26 həftə müddətində ödənilir. İşsiz qalmış şəxslərə əmək fəaliyyəti dövründə ödəmələr hesabına müəyyən müddətə sığorta haqqı verilməsi barədə hazırlanan qanun layihəsi də bu məqsədə xidmət edir.

**Əhalinin hər nəfərinə düşən aylıq gəlirləri (manatla)**




**Mənbə: Azərbaycanın Statistik Göstəriciləri. 2014. Bakı, 2014, s.166.**

Sosial sahədə olan təhlükələr əmək qabiliyyəti olmayan əhali kateqoriyasında daha çox müşahidə olunduğu üçün ÜDM artdıqca sosialyönümlü xərclərin maliyyələşdirilməsinə ayrılan vəsait artımı davamlı olmalıdır. Sosial təminatı az olan əhalinin minimum yaşayışını təmin etməyə xidmət edən, gəlirlərdəki qeyri-bərabərliyi azaldan sosial transferlərin Azərbaycanda dinamikası və həcmində baş verən dəyişikliyi izləyərkən məlum olmuşdur ki, adambaşına aylıq pul gəlirlərində sosial transferlərin xüsusi çəkisi 2005-ci ildə 11,6 faiz olmuşdursa, 2014-cü ildə 16,0 faiz təşkil etmişdir. 2005-2014-cü illərdə adambaşına aylıq sosial transferlər 4,9 dəfə artmaqla adambaşına aylıq pul gəlirlərininin artım sürətini 1,4 dəfəyə qədər qabaqlamışdır. Belə bir meyl də diqqətdən yayına bilməz ki, 2005-2014-cü illərdə ÜDM 4,7 dəfə artdığı halda, sosial transferlər onunla müqayisədə 4,3 faiz sürətlə artmışdır. Bu da normal hesab olunmalıdır, çünki dünyanın inkişaf etmiş ölkələrində ÜMM artımı ilə müqayisədə sosial transferlər daha sürətlə artır və burada məqsəd xalqa xidmət, onun azgəlirli hissəsinin güzəranını yaxşılaşdırmaqdır.

Yoxsul və az təminatlı əhalinin sosial təminatının (müxtəlif müavinətlər, ünvnlı dövlət yardımları, sosial xidmət və s.) ehtiyac meyarının əsasında müəyyənləşdirilməsində məqsəd həyat səviyyəsinin yaşayış minumumu həddindən aşağı düşməsinin qarşısının alınması və onun ünvanlılığının artmasıdır. Perspektivdə mövcud sosial yardım mexanizmlərinin filtrlərinin təkmilləşdirilməsi ilə yanaşı fəal sosial yardım proqramlarının (əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yaşayış minimumu həddində gəlirlərin vergilərdən azad edilməsi, əmək qabiliyyəti olmayanlara güzəştlərin edilməsi) genişləndirilməsi daha məqsədəuyğun olardı.

Fikrimizcə, ehtiyacı olanlara ünvanlı sosial yardım təkcə dövlət tərəfindən deyil, büdcədənkənar fondlar, həmçinin bələdiyyələr, qeyri-hökumət təşkilatları, xeyriyyə fondları və s. tərəfindən də göstərilə bilər. Belə ki, ehtiyacı olanlara yardımın göstərilməsi İsveç və İtaliyada 100% bələdiyyələr, Belçikada 50% dövlət, 50% isə xeyriyyə təşkilatları, Danimarkada 50% dövlət, 50% bələdiyyələr vasitətəsilə həyata keçirilir. Türkiyədə hazırda 100-dən çox büdcədənkənar fondlar fəaliyyət göstərir.

Bizə belə gəlir ki, bu aspektdə müəssisələr, firmalar da öz imkanlarından və işçilərinin istəyindən asılı olaraq köməklərin formalarını müəyyən etməklə həm yaxşı imic formalaşdırar, həm də özünü etibarlı əmək ehtiyatı ilə təmin edər.

Əhalinin sosial təminatının yüksəldilməsində sosial transferlərin mühüm istiqamətlərindən biri olan pensiya sahəsində ardıcıl islahatların

nəticəsində əmək pensiyalarının minimum məbləği 4 dəfə, orta aylıq məbləği 5,8 dəfə artaraq yoxsulluq həddini 1,7 faiz üstələyir. Lakin aylıq pensiyaların orta məbləği o qədər də yüksək olmadığından, onların gəlirlərinin artırılmasına və həyat səviyyələrinin yüksəldilməsinə şərait yaratmır. Hesab edirik ki, inkişaf etmiş ölkələrin təcrübəsindən çıxış edərək qeyri-dövlət pensiya sisteminin tətbiqi rəqabət yaratmaqla dövlət pensiya sisteminin səmərəli fəaliyyətinə kömək edər. Məsələn, Macarıstanda işçilər əmək haqqı fondunun 6%-ni, Polşada 7.2%-ni, Rusiyada isə 6,3% qeyri-dövlət pensiya fonduna köçürmüşlər.

Pensiya sahəsində həlli vacib olan məsələlərdən biri də əmək pensiyalarının, sosial müavinətlərdən yüksək olması prinsipinə əməl edilməsidir, çünki bu əməyə münasibəti, onun stimullaşdırıcı rolunu artırır. Həmçinin beynəlxalq təcrübəyə əsaslanaraq pensiyaların orta aylıq əmək haqqına nisbətən xüsusi çəkisinin artırılması məqsədəuyğundur. Əmək pensiyasının yığım və sığorta hissəsi işçinin sosial sığorta fonduna ödədiyi gəlir payından asılı olur və burada əsas xətt bölgü sistemindən yığım sisteminə keçilməsidir. 2015-2018-ci illərdə həyata keçiriləcək siyasətin əsas isiqamətlərində sığorta-pensiya sisteminin inkişafını aşağıdakı kimi göstərmək olar.

**Azərbaycanın sığorta-pensiya sisteminin inkişaf modeli**




Əhalinin yoxsulluq təhlükəsindən müdafiə olunmasının bir növü olan sosial sığortanın təşkilində təminatlı əhalinin sosial müdafiə sisteminin sığorta əsasına keçirilməsi, əmtəə və xidmət istehsalçılarına, büdcə subsidiyalarının azaldıması və onları aztəminatlı və yoxsul əhaliyə ünvanlı

ödənişlərlə əvəz edilməsi sosial ədalət prinsipinin gözlənilməsinə səbəb olar ki, bu da inkişaf etmiş ölkələrin çoxdan başlıca prinsipi olan rifah dövlətinin formalaşmasına səbəb olar.

Sosial təhlükəsizlik əhalinin bütün təbəqələrinin təminatlı səhiyyə yardımı, təhsil, idman, mədəniyyət və istirahətlə təmin olunması ilə yanaşı sosial xidmətləri də nəzərdə tutur. "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununda qocalığa, xəstəliyə, işsizliyə, əmək qabiliyyəti olmayanlara, əlilliyə, ailə başçısını itirməyə, hamiləliyə və doğuma, istehsalda alınan zədələrə görə və s. xidmət növləri və onların keyfiyyətinin yaxşılaşdırılması məsələləri öz əksini tapmışdır. Bu məqsədlə, 2015-2018-ci illərdə Dövlət İnvestisiya Proqramında sosialyönümlü layihələrə aşağıdakı vəsaitlər (mln. manatlar) ayrılmışdır.

| İstiqamətlər | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|
| Cəmi layihələrə | 8428,2 | 7179,5 | 6458,2 | 5625,0 |
| Sosialyönümlü layihələr | 2691,5 | 1125,3 | 893,0 | 720,5 |
| Təhsil sahəsi | 183,7 | 274,1 | 244,2 | 252,1 |
| Səhiyyə sahəsi | 210,1 | 262,2 | 186,7 | 63,9 |
| Sosial təminat sahəsi | 17,3 | 35,8 | 27,6 | 24,1 |
| Mədəniyyət sahəsi | 435,4 | 389,0 | 299,4 | 243,7 |
| Gənclər və idman sahəsi | 1516,8 | 128,0 | 104,5 | 97,6 |
| Digər sosial xidmətlər | 300,7 | 30,4 | 30,6 | 34,2 |
| Sosialyönümlü layihələrin cəmi layihələrdə payı, %-lə | 31,9 | 15,7 | 13,8 | 12,8 |

**Mənbə: Cədvəl Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsinin IV zərfinin məlumatları əsasında hazırlanmışdır.**

Göründüyü kimi, sosialyönümlü layihələrə ayrılan vəsaitlərin xüsusi çəkisi illər üzrə azalmağa doğru getsə də, bütövlükdə qarşıdakı dövrdə onların reallaşdırılmasına çəkiləcək xərclərin məbləği 5625,03 mln. manat təşkil edir ki, bu da cəmi xərclərin 1/5-i deməkdir. Qərb ölkələrin təcrübəsindən çıxış edərək passiv transferlərdən (birbaşa pul ödəmələri) insan kapitalına investisiyalarla bağlı fəal transferlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik. 2015-ci ilin sonlarında dünyada baş verən proseslər Azərbaycanda da böhran yaratdığından aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsinə ehtiyat fondundan 20 mln manat vəsaitinə ayrılması sosial sahədə olan təhlükənin qarşısının alınmasına yönəlmişdir.

Sosial təminat sisteminin qorunmasının vacib istiqamətindən biri olan indeksləşdirmədə məqsəd inflyasiya zamanı əhalinin tələbatının normal təmin olunması ilə həyat səviyyəsi arasındakı nisbətin saxlanılmasıdır. Təəssüflə qeyd etmək lazımdır ki, əhali gəlirlərini inflyasiyadan qorumaq üçün zəruri hüquqi bazanın (İndeksləşdirmə haqqında Qanunda) olmasına baxmayaraq, bu gün də əmək haqlarının, pensiyaların, müavinətlərin vaxtaşırı yüksəldilməsi həyata keçirilir.

ABŞ, Belçika, Lüksemburq, Fransada qiymət indeksi 2,4-3%, Rusiyada 6%-i keçdikdə gəlirlərin indeksləşdirilməsi həyata keçirilir və inflyasiyanın hər faizinə uyğun olaraq əmək haqqı 0,5% yüksəlir. Ölkəmizdə istehlak qiymətləri indeksi 5%-dən yuxarı olduqda pul gəlirlərinin aylıq minimum əmək haqqının 4 mislinə qədər hissəsi indeksləşdirilir. Son vaxtlar neftin qiymətinin düşməsi, qonşu ölkələrdə milli valyutaların devalvasiyası bizdə də bu prosesi labüd etmişdir. İnflyasiyanın artması ilə ərzaq (6,1%), qeyri-ərzaq (3,8%) və pullu xidmətlərin (1,2%) qiymətlərinin artması fonunda əmək haqqı, təqaüd və sosial müavinətlərin təxminən 10% artırılması tam indeksləşdirməyə uyğun olmasa da, indiki vəziyyətdən çıxılmasına xidmət edir.

İnflyasiyadan zərərçəkən büdcə təşkilatlarında çalışanların, pensiyaçıların gəlirləri qiymət artımından geri qaldığından kompensasiya üçün büdcədənkənar fondlar sistemini və yerli büdcələri möhkəmləndirməklə sosial gərginliyi azaltmaq olar. Həmçinin əhalinin yığılan pul gəlirlərinin və əmanətə çevrilən hissəsinin indeksəlşdirilməsi də xüsusi rola malikdir. Hiperinflyasiya zamanı yoxsul və aztəminatlı əhaliyə ünvanlı natural ödəmələrin həyata keçirilməsi və onların yerli bələdiyyə orqanları tərəfindən verilməsi daha məqsədəuyğundur.

"Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi" və "2014-2020-ci illərdə pensiya təminatı sisteminin islahatı" konsepsiyalarında pensiyanın minimum həddi də daxil olmaqla bütün məbləğin hər il indeksləşdirilməsi nəzərdə tutulmuşdur.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Sosial müdafiə sistemində pensiya təminatı və onun təkmilləşdirilməsi // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu Elmi Əsərləri . Bakı, 2006, № 2, s. 128-138;

2. Əhalinin miqrasiyası və milli təhlükəsizlik // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu Elmi Əsərləri. Bakı, 2008, № 1, s. 65-78;

3. Əhalinin təbəqələşməsi və sosial təhlükəsizlik // Türk Dünyası Araşdırmaları Vakfı. 9. Uluslararası Türk Dünyası Sosyal Bilimler Kongresi Tebliğleri. Türk Dünyasında Bilim-Küıtür-Gelenek. İstanbul, 2011, 2-ci cild, s. 118-124;

4. Ev təsərrüfatları gəlirlərinin formalaşması və ondan istifadənin sosial-iqtisadi problemləri (Azərbaycan Respublikası materialları əsasında) // "Elm və təhsil", Bakı, 2011;

5. Əhali gəlirlərinin formalaşması, bölüşdürülməsinin sosial-iqtisadi məsələləri // Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu Elmi Əsərlər, Bakı 2012, № 2, s. 420-425;

6. Milli iqtisadiyyatın sosial təhlükəsizliyi // "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi" Beynəlxalq Elmi Praktik Konfransın materialları. Bakı, 2012, s. 942-945,

7. Vətəndaşların sosial hüquqlarının qorunması onların təhlükəsizliyinin təminatıdır // Azərbaycan Kooperasiya Universiteti, "Kooperasiya" elmi-nəzəri jurnal. Bakı, 2012, s.44-49;

8. Социально-экономическое значение индексации денежных доходов населения и проблемы ее совершенствования // "Наука и бизнес. Пути развития". Москва, 2013, N2(20), с. 55-59.

**Турал Фархад оглы Алийев**

# Проблемы социальной безопасности национальной экономики в условиях глобализации

## Резюме

Диссертация состоит из введения, трех глав, выводов и рекомендаций, а также списка использованной литературы.

Во введении отражена актуальность исследования, сущность поставленных в диссертационной работе проблем, цель и задачи исследования, его основные положения, научные основы полученных результатов исследования, а также их практическая ценность.

В первой главе под названием «Теоретико-методологические основы социальной безопасности национальной экономики » рассматриваются место и роль социальной безопасности в системе безопасности национальной экономики, уточнены систем критерий и показатели социальной безопасности, обоснована небходимость и определены особенности обеспечения социальной безопасности в условиях глобализации.

Во второй главе под названием «Состояния факторов социальной безопасности в соврененных условиях в Азербайджане» определены основные тенденции в динамике уровня и качества жизни и был проведен анализ современного состояния занятости населения и обеспечения социальной стабильности, исследовано существующее состояния бедности.

В третьей главе под названием «Направления совершенствования социальной безопасности национальной экономики в условиях глобализации» были исследованы возможности развития человеческого капитала в обеспечении социальной безопасности в условиях глобализации, пути улучшения социальной обеспечении населения, направления совершенствования индексаций в социальной обеспечении населения в Азербайджане, а также выдвинуты соответствующие научно обоснованные предложения и идеи.

В конце исследовательской работы в соответствии с объектом исследования были отражены соответствующие научные выводы и предложения.

**Aliyev Tural Farhad**

## The Problems of Social Protection of National Economy in terms of Globalization

### Summary

The dissertation work consists of the introduction, three chapters, the conclusion, recommendations and the literature review.

The Introduction emphasizes the research's urgency and the main points, objective, propositions, main regulations and scientific foundations based on the result of the study as well as its practical value.

The first chapter, titled "Theoretical-methodological foundations of social protection of the national economy" elaborates the place and role of the social protection in the system of the national economy, specifies the criteria and indicator system of the social protection, validates the need and determines the characteristics of social protection support in the globalization era.

"Social protection factors' condition in modern Azerbaijan", the second chapter of the dissertation work, discusses the main tendencies in the dynamics of standards and quality of life, carries out the analysis of the employment rate in the current time and the ensuring of social stability as well as the current rate of poverty.

"The enhancement directions of social protection of the national economy in the globalized world", the third chapter, studies the development opportunities of human resources in securing the social protection, ways of improvement of social protection of population, the enhanced indexing strategies of social protection of population in Azerbaijan and presents the scientifically verified recommendations and ideas.

The dissertation work ends with the applicable scientific conclusions and proposals relevant to the object of the research.

AMEA-nın mətbəəsində çap olunub

Tiraj-100